№ 228 (1356) 10 dekabr - 12 dekabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# KÜRDƏMİR: İNKİŞAF SEVİNC BƏXŞ EDİR

(əvvəli ötən saylarımızda)

**Eyni zamanda uzunluğu 3,65 km olan rayonun Mürtülü, Dəyirmanlı və Yenikənd kəndlərini birləşdirən Yenikənd-Dəyirmanlı yerli əhəmiyyətli avtomobil yolunun əsaslı təmiri ilə əlaqədar Respublika İqtisadiyyat Nazirliyinə müraciət olunmuş, köməklik göstərilməsi barədə razılığa gəlinmiş, yaxın müddət ərzində layihə smeta sənədləri hazırlanıb əsaslı təmir işlərinə başlanacaqdır.**



### *Təhsil, səhiyyə və mədəniyyət*

Rayonda təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişaf etdirilməsi, mövcud problemlərin aradan qaldırılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində olmuşdur.

Rayon Təhsil şöbəsi 2016-cı ilin 9 ayı ərzində təhsil sahəsində islahat proqramının təhsil qanununun və Azərbaycan Respublikasında təhsilin inkişafına dair dövlət strategiyasının qarşıya qoyduğu vəzifələrin müsbət həlli istiqamətində müvafiq işlər görmüşdür.

Rayonun təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların müasir avadanlıqlarla, ixtisaslı kadrlarla təmin olunması və şagirdlərə dərsliklərin vaxtında çatdırılması sahəsində konkret vəzifələr müəyyənləşdirilərək onların həyata keçirilməsi təmin edilmişdir.

Rayon Təhsil şöbəsinin fəaliyyətinin qiymətləndirilməsinin mühüm göstəricilərindən biri də məktəb məzunlarının ali təhsil müəssisələrinə qəbul imtahanlarında əldə etdikləri nəticələrlə ölçülür.

2016-cı ildə rayonun ümumtəhsil məktəblərini 979 nəfər bitirmiş, onlardan 508 nəfəri ali məktəblərə qəbul olunmaq üçün elektron ərizə ilə müraciət etmişlər.

Onlardan 172 nəfəri ali məktəblərə qəbul olunmuşlar. Ali məktəblərə qəbul olunanlardan 10 nəfəri 600 baldan çox, 1 nəfəri isə 700 bal toplayaraq Kürdəmir təhsil sahəsində ilk dəfə olaraq ən yüksək nəticə göstərmişdir.

2016-2017-ci ilin tədris ilində rayonun 36 ümumtəhsil məktəbində 50 məktəbdə hazırlıq qrupu açılmış və həmin qruplarda 989 nəfər uşağın təhsillə əhatə olunması təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin tapşırığına əsasən rayonda əhalinin tibbi müayinədən keçirilməsi təmin edilmiş, 102 min nəfər tibbi müayinədən keçirilmişdir.

Bu ilin doqquz ayı ərzində rayonun tibb müəssisələrinə 420346 ambulator müraciət olunmuş, 3460 nəfər xəstə stasionar müəalicəyə cəlb edilmiş, onlardan 497 nəfəri cərrahi əməliyyat edilmişdir. 9 ay ərzində təcili yardım xidmətindən 6569 nəfər istifadə etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin təbliği rayon İcra Hakimiyyəti Başçısı Aparatının apardığı ideoloji işin başlıca istiqamətini təşkil edir.

Fəalların və təbliğat qruplarının yaxından iştirakı ilə cənab Prezidentin həyata keçirdiyi siyasətin təbliği ilə bağlı məqsədyönlü ictimai-siyasi tədbirlər həyata keçirilir.

### *Cinayətkarlığa qarşı mübarizə*

Dövlətçilik və müstəqillik mövqeyində dayanan rayonun hüquq-mühafizə orqanları sabitliyin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizə və ictimai-siyasi asayişin qorunması sahəsində ardıcıl olaraq iş aparmışlar.

2016-ci ilin 9 ayında rayonda 178 cinayət hadisəsi qeydə alınmışdır.

Baş vermiş cinayət hadisələrinin 145-nin istintaqı tamamlanmışdır. Cinayyət hadisələrinin əsas hissəsini oğurluq, dələduzluq, ağır və xüsusilə ağır cinayətlər, yol hərəkətinin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması hadisələri olmuşdur.

### *Vətəndaş müraciətlərinə həssas yanaşma*

2016-cı ilin 9 ayında rayon İcra Hakimiyyətinin Başçısı tərəfindən 1440 nəfər vətəndaş qəbul edilmişdir ki, onlardan 1265 nəfəri rayon İcra Hakimiyyəti Başçısının Aparatında, 175 nəfəri isə yerlərdə keçirilən səyyar qəbullar zamanı fərdi qaydada qəbul edilmişdir. Müraciət etmiş hər bir vətəndaşa diqqət və qayğı ilə yanaşılmış, mümkün lazımi köməkliklər göstərilmişdir.

**Rayon İcra Hakimiyyəti Başçısı Aparatına 2016-cı ilin 9 ayında vətəndaşlardan 977 ədəd müraciət daxil olmuşdur. Daxil olmuş müraciətlərin 432 ədədi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 36 ədədi Milli Məclisdən, 25 ədədi Nazirlər Kabinetindən, 81 ədədi digər yuxarı Respublika təşkilatlarından, 403 ədədi isə vətəndaşlar tərəfindən bilavasitə rayon İcra Hakimiyyətinə göndərilmiş ərizə və şikayətlərdir.**

**Məzahir ƏHMƏDZADƏ**

> **“... Bu gün Azərbaycan təkcə neft ölkəsi deyil, bu gün Azərbaycan həm də kənd təsərrüfatı, sənaye ölkəsidi. Bizim kifayət qədər təbii, iqtisadi sərvətlərimiz, gücümüz, imkanlarımız var. Çalışmalıyıq ki, bundan sonra da qeyri-neft sektorunu daha da geniş əhatədə, daha böyük sürətlə inkişaf etdirib Azərbaycanın nemətlərini təkcə özümüzün, ölkəmizin bazarlarında deyil, həm də dünya bazarlarına çıxaraq”.**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***